# Valideyn, dost və qonşu itkisi

## Terrorun şahidləri danışırlar



**2020-ci il oktyabrın 11-də gecə saat 2 radələrində Gəncə şəhəri 4-cü dəfə xain düşmənin raket hücumuna məruz qaldı. Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun gücü qarşısında aciz qalan Ermənistan silahlı qüvvələri uğursuzluqlarını ört-basdır etmək niyyəti ilə yenə dinc sakinləri hədəf aldı.**



Şəhərdə "Qələbə" parkının yaxınlığındakı çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 10 nəfər həlak oldu, 34 nəfər yaralandı. Onların arasında qadın və uşaqlar da vardı. Neçə-neçə ailənin bağrına köz basıldı, taleyinə kədər yazıldı.

AZƏRTAC-ın bölgə müxbiri o acı günün şahidi olan ailələrlə görüşüb. Bağırovlar ailəsi erməni terroru nəticəsində təkcə evini itirməyib, ailə başçısı, 1958-ci il təvəllüdlü Bağırov Ramiz Yusif oğlu da şəhid olub. Şəhidin oğlu Yusif Bağırov o dəhşətli gündən geriyə qalan xatirələri bölüşüb. Yusif deyir ki, erməni terroru onu və bacısını atasız qoyub, anasını isə sağlamlığından edib. O günlərin acısı ailə üzvlərində bir ömür unudulmaz izlər qoyub.

"İşimlə əlaqədar Bakıda yaşayırdım, anamla atam isə Gəncədə idi. Ermənilər şəhərə üç dəfə raket atmışdılar. Hadisədən 3-4 gün əvvəl təhlükəsizlik üçün anamı və bacımgili Bakıya apardım, ancaq atam bizimlə gəlmədi, evdə qaldı. Oktyabrın 10-da humanitar atəşkəsə riayət olunması barədə razılıq əldə edildiyindən, anam təkidlə Gəncəyə geri qayıtdı. Bir gün sonra isə məlum hadisə yaşandı", - deyə şəhid oğlu bildirir.

Yusif oktyabrın 11-i gecə saatlarında evlərinin olduğu ərazinin raket atəşinə məruz qalmasını dostundan öyrənib: "Bu xəbəri eşidəndə özümü itirdim. Atamgili yığdım, cavab verən olmadı. Dostlarım isə dedilər ki, raket atılıb, ərazi darmadağın olub, elektrik enerjisi kəsilib, heç kəsdən xəbər yoxdur. Yarım saat sonra anamla əlaqə yarada bildim. Anam yaralanmışdı, atamdan hələ də xəbər yox idi. Sonra mənə əməliyyata alındığını desələr də, belə olmadığını hiss etmişdim. Gəncəyə dönəndə atamın şəhid olduğunu öyrəndim... Anam da xəsarətlər almışdı, gözləri görmürdü, ayağını, kürəyini dəmirlər kəsmişdi, barmaqları qırılmışdı. Qonşularımız, dostum Ülvi ailəsi ilə birgə şəhid olmuşdu".

O, doğulub, boya-başa çatdığı həyətlərini, evlərini göründə dəhşətə düşdüyünü deyir. "Hər yer dağılmışdı. Atamın cənazəsində şəkil belə tapa bilmirdim, qohumlardan, tanışlardan istəyirdik. Hər şey elə bil ki, o evdə batmışdı. Raket hücumu əzizlərimizi, xatirələrimizi əlimizdən aldı. Bizim ordumuz döyüş meydanında gücünü göstərirdi, ermənilər isə öz adətlərinə sadiq qalaraq dinc sakinləri hədəf alırdılar. Təsəllimiz odur ki, atam uca şəhidlik zirvəsinə yüksəldi", - deyə Yusif vurğulayır.





Erməni terroru zamanı Bağırovların qonşuluğunda yaşayan Allahverdiyevlər ailəsi də bu hadisənin dəhşətini yaşayanlardandırlar. Ailənin oğul övladı Rüfət Allahverdiyev həmin günü belə xatırlayır: "Sanki belə bir hadisənin yaşanacağını əvvəlcədən hiss etmişdik, nəsə narahat idik. Axşam saatlarında qonşularla bayırda söhbətləşdikdən sonra hər kəs evinə dağıldı. Evdə atam, anam, qardaşım və mən idim. Gecə yatdığımız zaman elə bil zəlzələ oldu, divar üzərimizə aşdı, çilçıraq düşdü. Yerimizdə bükülüb, sağ qalıbqalmayacağımızı gözləyirdik. Atamın üzərinə dolab düşmüşdü, qardaşımla köməkləşib onu və anamı xilas etdik, daha sonra qonşulara kömək üçün yollandıq. Dostumgilin evinə baxdım, evdən əsər-əlamət qalmamışdı. Ətrafı toz-duman almışdı, kimi uşağını, kimi yoldaşını xilas etməyə çalışırdı", - deyən terror şahidi aidiyyəti qurumların köməyi ilə xilas olduqlarını bildirir.

Vətən müharibəsinin davam etdiyi 44 gündə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə 5 dəfə (4, 5, 8, 11, 17 oktyabrda) raket və ağır artilleriya ilə hücum edilib. Bu terror aktları nəticəsində 26 mülki şəxs həlak olub, 175 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Azərbaycan.- 2024.-12 oktyabr (№ 224).- S.8.